*Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin 2026-cı il 17 fevral tarixli 9 nömrəli Əmri ilə təsdiq edilmişdir*

**Patent müvəkkili statusu almaq istəyən namizədlərin nəzərinə!**

**Hörmətli namizəd!**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi patent müvəkkili statusu almaq istəyinizi təşviq edir və bu yolda sizə uğurlar arzulayır!

Biliyinizin qiymətləndirilməsində operativliyin təmin olunması məqsədilə müasir maddi-texniki bazaya malik olduğunu nəzərə alaraq attestasiya Dövlət İmtahan Mərkəzi ilə birlikdə keçirilir.

Əmin ola bilərsiniz ki, hər bir namizədin bilik və bacarığını sərbəst nümayiş etdirə bilməsi üçün şəffaflıq və obyektivlik maksimum təmin olunacaq.

Attestasiyada uğur qazanmaq istəyirsinizsə, "Yaddaş kitabçası"nda göstərilən qaydalara ciddi əməl etməlisiniz.

---

## Patent müvəkkili statusu almaq istəyən şəxslər (patent müvəkkiliyinə namizədlər) üçün

## YADDAŞ KİTABÇASI

### 1. ÜMUMİ MÜDDƏALAR

**1.1.** Attestasiya iki mərhələdə keçirilir. Test imtahanından ibarət birinci mərhələ Dövlət İmtahan Mərkəzi tərəfindən, müsahibədən ibarət ikinci mərhələ isə Əqli Mülkiyyət Agentliyində yaradılmış Attestasiya Komissiyası tərəfindən aparılır. Test imtahanı mərhələsində namizədlərin sənaye mülkiyyəti obyektləri (ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı, coğrafi göstərici) və müəlliflik hüququ (kəsişmə hallarında) ilə bağlı Azərbaycan Respublikasının normativ hüquqi aktları, habelə Azərbaycan Respublikasının qoşulduğu müvafiq beynəlxalq sazişlər (müqavilələr) üzrə və sənaye mülkiyyəti obyektlərinə hüquqların mühafizəsinin Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə tənzimlənməsinə dair ümumi bilikləri yoxlanılır.

**1.2.** Namizəd attestasiyanın Dövlət İmtahan Mərkəzi ilə birlikdə keçirilən mərhələsinə və ya Əqli Mülkiyyət Agentliyində keçirilən növbəti mərhələsinə gəlmədikdə attestasiyadan keçməmiş sayılır.

**1.3.** Şəxs il ərzində yalnız bir dəfə attestasiyadan keçmək üçün müraciət edə bilər.

### 2. TEST İMTAHANI MƏRHƏLƏSİNDƏ NAMİZƏDİN VƏZİFƏLƏRİ

**2.1.** Namizəd imtahan günü buraxılış vərəqində göstərilən vaxtda imtahanın keçirildiyi binanın qarşısına gəlməli (imtahanın keçirildiyi binanın ünvanı, imtahanın tarixi və vaxtı haqqında məlumatlar "Attestasiyanın test imtahanı mərhələsinə buraxılış vərəqəsi"ndə göstərilir), Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilmiş qaydada şəxsiyyət vəsiqəsini və "Attestasiyanın test imtahanı mərhələsinə buraxılış vərəqəsi"ni buraxılış rejimini həyata keçirən şəxsə təqdim edib binaya daxil olmalı və buraxılış vərəqəsində göstərilən otaqda (zalda) öz yerini tutmalıdır.

Hər kompüter arxasında yalnız bir namizəd əyləşir.

**2.2.** Namizəd test imtahanının keçirildiyi otaqda (zalda) onun üçün ayrılmış kompüterin qarşısında əyləşərək, imtahanın başlanması elan edilənə qədərki müddət ərzində ekrandakı göstərişləri izləyir və məlumatları nəzərdən keçirir.

**2.3.** Namizəd ekrandakı şəxsi məlumatların (soyad, ad, ata adı və namizədə aid digər məlumatlar) iddia etdiyi patent müvəkkili statusunu almaq üçün ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəricidən hər hansı biri və ya bir neçəsi sahəsində məhdud fəaliyyət göstərmək üçün ərizəsində qeyd etdiyi məlumatlarla uyğunluğunu yoxlayır. Məlumatlarda uyğunsuzluq və ya hər hansı bir səhv aşkar etdikdə nəzarətçiyə müraciət etmək üçün ekranda yerləşdirilmiş "Personala müraciət" düyməsini basır.

**2.4.** Müvafiq məlumatlarla tanışlıq üçün ayrılan vaxt başa çatdıqdan sonra attestasiyanın test imtahanı mərhələsi başlayır. Test imtahanının müddəti 3 saatdır.

**2.5.** Şəffaflığın və nizam-intizamın təmin edilməsi məqsədilə test imtahanı prosesinin fasiləsiz videoçəkilişi aparılır.

**2.6.** Namizəd Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 fevral tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmiş "Patent müvəkkilləri haqqında Əsasnamə"nin 6.2-ci bəndinin səkkizinci abzasında göstərilən normativ hüquqi aktlar üzrə **100** test tapşırığını cavablandırmalıdır. Ən azı 50 test tapşırığına düzgün cavab verən namizəd attestasiyanın müsahibə mərhələsində iştirak etmək hüququ qazanır.

**2.7.** Düzgün cavablandırılmış hər tapşırıq **"1"** balla, yanlış cavablandırılmış və ya cavablandırılmamış test tapşırıqları isə **"0"** balla qiymətləndirilir.

**2.8.** Namizəd geri qayıtmamaq şərti ilə (üzürlü hallar istisna olmaqla) imtahanın keçirildiyi otağı (zalı) imtahanın başlanmasının elan olunduğu andan 30 dəqiqə sonra tərk edə bilər.

**2.9.** Namizəd istənilən səbəbdən imtahandan vaxtından əvvəl çıxdıqda, nəzarətçinin müşayiəti ilə otağı (zalı) tərk edir.

**2.10.** Test suallarının cavablandırılması üçün ayrılan vaxt başa çatdıqda və ya namizəd imtahanı vaxtından əvvəl başa çatdırdıqda topladığı ümumi bal ilə tanış olur və imtahan otağını (zalını) tərk edir.

**2.11.** Attestasiyanın birinci mərhələsi başa çatdıqdan sonra keçirilmiş ekspertiza nəticəsində Attestasiya Komissiyası tərəfindən test tapşırıqları üzrə hər hansı bir səhv aşkar edilərsə, həmin tapşırıq bütün namizədlər üçün düzgün cavablandırılmış sayılır.

**2.12.** Namizəd aşağıdakı hallarda attestasiyanın test imtahanı mərhələsinə buraxılmır:

- tələb olunan sənədlərdən (namizədin şəxsiyyət vəsiqəsi və "Attestasiyanın test imtahanı mərhələsinə buraxılış vərəqəsi") biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
- saxta sənəd təqdim etdikdə;
- test imtahanının keçirildiyi binaya imtahanın başlanmasına **15** dəqiqə qalmışdan sonra gəldikdə;
- imtahana içkili vəziyyətdə gəldikdə;
- qadağan edilmiş əşyalarla imtahanın keçirildiyi otağa (zala) daxil olmağa cəhd etdikdə.

**2.13.** İmtahan binasına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, çanta, məlumat kitabçası, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək qadağandır.

**2.14.** Test imtahanının keçirildiyi otaqda (zalda) texniki qurğularla (monitor, klaviatura, qulaqlıq və s.) ehtiyatlı davranmaq lazımdır, onları zədələmək və ya xarab etmək olmaz.

## 3. MÜSAHİBƏNİN KEÇİRİLMƏSİ

**3.1.** Namizəd müsahibəyə gələrkən şəxsiyyət vəsiqəsini gətirməlidir.

**3.2.** Müsahibə attestasiyanın birinci mərhələsində ən azı **50** bal toplamış namizədlərlə keçirilir.

**3.3.** Attestasiyanın aparılması zamanı namizəd etiraz etmədikdə videoçəkiliş aparılır.

**3.4.** Suallar, namizədin cavabları, müzakirə olunan mövzular attestasiya vərəqəsində qeyd edilir.

**3.5.** Müsahibənin keçirildiyi tarix və yer Attestasiya Komissiyası tərəfindən müəyyən edilir və bu barədə namizədin elektron poçt ünvanına müsahibənin keçiriləcəyi tarixdən 5 gün əvvəl bildiriş göndərilir.

**3.6.** Müsahibə hər bir namizədlə fərdi qaydada ən azı **30** (otuz) dəqiqə müddətində aparılır. Attestasiya komissiyasının hər bir üzvü namizədin qanunvericiliyi tətbiqetmə bacarığını, xarici dil və informasiya texnologiyaları üzrə biliklərini, ölkədə və dünyada baş verən mühüm hadisələrə dair, o cümlədən əqli mülkiyyət sahəsində məlumatlı olub-olmadığını müəyyən etmək üçün ona suallar verə bilər.

**3.7.** Attestasiyanın hər iki mərhələsinin yekunları nəzərə alınmaqla Attestasiya Komissiyası tərəfindən namizədin patent müvəkkili kimi attestasiyadan keçməsi və ya keçməməsi haqqında səsvermə qaydasında qərar qəbul olunur.

**3.8.** Səsvermə namizədin iştirakı olmadan keçirilir. Attestasiya Komissiyası üzvlərinin səs çoxluğu ilə müvafiq qərar qəbul edilir və nəticələr protokolla rəsmiləşdirilir.

**3.9.** Attestasiya Komissiyasının sədri tərəfindən imzalanan attestasiyanın nəticəsinə dair qəbul edilmiş qərar barədə bildiriş səsvermədən sonra dərhal namizədə təqdim olunur.

**3.10.** Attestasiyanın nəticələri ilə razı olmayan namizəd attestasiya nəticəsində qəbul edilmiş qərar barədə bildirişi aldığı vaxtdan **30** gün müddətində Agentliyin Apellyasiya şurasına yazılı formada etirazını təqdim edə bilər.

## 4. ATTESTASİYANIN MÜSAHİBƏ MƏRHƏLƏSİNDƏ NAMİZƏDƏ QADAĞAN EDİLƏN HƏRƏKƏTLƏR

**4.1.** Namizəd aşağıdakı hərəkətlərə yol verməməlidir:

**4.1.1.** müsahibənin keçirildiyi otağa (zala) mobil telefon və digər rabitə vasitələri, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;

**4.1.2.** müsahibənin keçirildiyi otağa (zala) yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu qəbildən olan əşyalarla daxil olmaq;

**4.1.3.** müsahibə başlandıqdan sonra hər hansı səbəbə görə nəzarətçinin müşayiəti olmadan müsahibənin keçirildiyi otağı (zalı) tərk edib yenidən geri dönmək;

**4.2.** Bu qaydaları pozan namizəd attestasiyadan kənarlaşdırılır.

---